# Multikulturalizm və teatr



**İnsanların mənəvi-estetik zövqünün formalaşması, dünyagörüşünün inkişafında teatrın oynadığı rol şübhəsiz ki, böyükdür. Bu mənada uşaq və yeniyetmələrin teatra, sənətə, səhnəyə sevgi, maraq ruhunda tərbiyəsi hamımızın ümdə vəzifəsi olmalıdır.**

Heç kimə sirr deyil ki, müasir dövrün texnoloji meyilləri, xüsusən yeni nəslin elektron resurslara sürətli və sürəkli inteqrasiyası ənənəvi mexanizmlər üzərində yenidən işləmək tələb edir. Bu mənada istər valideyn olaraq, istərsə də bu sahə ilə məşğul olan və ya sadəcə cəmiyyət fərdi kimi hər birimizin missiyası uşaqları ənənəvi sənətə, zövqə, yaradıcılığa sevgi ruhuna kökləməkdir. Bu mənada canlı sənət növü, yüksək enerji mənbəyi, tərbiyedici və maarifçi vasitə olaraq teatrın yeri böyükdür.

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı da özünün zəngin yaradıcılıq planında, hər mövsüm üçün xüsusi diqqət və əsas etibarilə tamaşaçı sorğu-rəyləri əsasında formalaşdırdığı repertuarında bu məsələlərə ayrıca diqqət göstərir.

Bu məqamda incə bir nüansa diqqət ayırmaq lazımdır. Bizim yaradıcı heyət tamaşaçı sorğusu deyərkən bütünlükdə onların səhnədə görmək istədiyi dramaturji nümunələrin teatr estetikası, yüksək sənət meyarlarına uyğun səhnə həllində təqdimatına çalışır. Beləliklə çağdaş teatrın tələblərinin milli teatr üslubuna inteqrasiyasına nail olmaqla azyaşlı tamaşaçılarımızın teatral zövqünə xitab edirik.

Repertuarımızda M.Seyidzadənin “Cırtdan”, rus xalq nağılı “Qoğal”, K.Kollodinin “Pinokkionun sərgüzəştləri”, ərəb xalq nağılı “Əlibaba və qırx quldur”, V.İlyuxovun “Oyaq gözəl”, son illərin ən məşhur cizgi filmlərindən olan “Maşa və Ayı”nın eyniadlı səhnə yozumu, S.Y.Marşakın “Pişiyin evi”, rus xalq nağılları “Qızıl balıq” və “Turp”, A.Lindqrenin “Karlson”, C.Rodari “Çipollino” və s. nümunələr rus bölməsi üçün hazırlanmışdır və hazırda da maraqla izlənilməkdədir. Biz bu mövsüm üçün nəzərdə tutulan tamaşa planımıza da 2 rus dilində tamaşa daxil etmişik ki, onu da ilin sonunadək balaca teatrsevərlərin ixtiyarına verəcəyik.

Tarixin bütün dövrlərində ölkəmizdə bu gün multikulturalizm adlandırdığımız sosial münasibətin mövcudluğu və davamlılığını şərtləndirən dinc birgəyaşayış ənənəsini, tolerantlıq, qarşılıqlı hörmət və ehtirama söykənən köklü münasibətləri örnək göstərə bilərik. Bunun nəticəsidir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev 2016-cı ili Azərbaycanda “Multikulturalizm ili” elan etmişdi və əsrləri əhatə edən bu sosial münasibətin daha da dərinləşməsinə zəmanət vermişdi.

Multikulturalizm dünyada tolerantlığa, dözümlülüyə, dövlətlərarası etibarlı münasibətlərə və bütövlükdə demokratik prinsiplərin beynəlxalq münasibətlərdə bərqərar olunmasına xidmət edir.

Müxtəlif mədəniyyətlərə və milli-dini azlıqlara hörmət Azərbaycan xalqının milli xüsusiyyətidir. Artıq dünyada multikulturalizm sahəsində ən optimal model kimi Azərbaycan nümunəsi öyrənilir.

Mədəniyyətin ən mühüm amillərindən biri mədəni müxtəliflik və plüralizmdir. Azərbaycan çox qədimdən ən müxtəlif xalqların yə mədəniyyətlərin vətəni olmuşdur. Şərq mədəniyyətinin dünya və Avropa mədəniyyətinə, yaxud əksinə keçid alması üçün Azərbaycan körpü rolunu oynamışdır. Çoxmillətli, çoxdilli Azərbaycan üçün bu ideologiyanı tarixi reallığımızın özü irəli sürmüşdür.

Azərbaycan teatrının keçdiyi tarixi inkişaf yoluna nəzər saldıqda da biz bunun şahidi oluruq. Ölkədə rus, gürcü və ləzgi dilində fəaliyyət göstərən üç dövlət teatrı var ki, məhz bu fakt dediyimiz multikultural siyasətin bariz nümunəsidir. Həmçinin bir neçə aparıcı dövlət teatrında da rus dilində, rus bölməsi üçün tamaşalar hazırlanır və rusdilli teatrsevərlərin ixtiyarına verilir.

Dövlət Kukla Teatrı olaraq biz də rusdilli balalarımızın teatral tələbatlarını ödəməklə məşğuluq. Ötən əsrin 60-cı illərindən başlayaraq repertuarımızda dünya və milli dramaturgiyasının nağıl və digər bədii-ədəbi nümunələri rus dilində hazırlanıb təqdim olunur. Hər il yenilənən repertuarla sadiq tamaşaçılarımızla yanaşı xarici qastrollarda da olur və tamaşaçılar qarşısında çıxış etməklə milli teatr sənətimizi yüksək səviyyədə təqdim etməyə çalışırıq.

Böyük maarifçi dahi Həsən bəy Zərdabi və görkəmli yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə 1873-cü ildə Bakıda M.F.Axundzadənin “Lənkəran xanının vəziri” və “Hacı Qara” komediyalarının səhnələşdirilməsi təkcə ölkəmizdə deyil, eləcə də bütün müsəlman Şərqində dünyəvi peşəkar teatrın təməlini qoydu. O vaxtdan düz 147 il keçir. Bu zaman kəsiyi ərzində Azərbaycan teatrının siması və statusu dəyişir, bədii axtarışları, yaradıcılıq yönümü kamilləşir. Milli teatr sənətinin təkamülündə müstəsna xidmətləri olan görkəmli sənət fədailəri - aktyor və rejissor nəsli yetişir, - repertuar siyasəti formalaşır.

Beləliklə də teatr Azərbaycan xalqının milli-mədəni dəyərlərinin qorunması, təbliğ olunması, mütərəqqi ideyaların aşılanması missiyasını həyata keçirməyə davam edir. Bu şərəfli və məsuliyyətli yolun bundan sonra da tərəqqisi üçün həm də yaxşı tamaşaçı nəsli yetişməlidir və onlar səhnənin ecazkarlığını tamaşa etdikləri nümunələrdən hiss etməlidirlər.

**Rəşad ƏHMƏDZADƏ,**
**Azərbaycan Dövlət Kukla Teatrının direktoru,**
**Əməkdar mədəniyyət işçisi.**

Respublika.- 2019.-3 oktyabr.- S.7